# *ULTRA TECHNOLOGİES Şirkətinin*
## *Biznes Tərəfdaşları üzərində lazımı səylər barədə Prosedur*

Hazırlanma tarixi: 02.05.2016
Təftiş: 001

Təsdiqləyən məsul şəxs:

Abdul Qurbanov, Baş Direktor

# MÜNDƏRİCAT

**1.** Məqsəd və əhatə dairəsi ........................................................................................2

**2.** Ümumi ........................................................................................................................3

**3.** Tərəfdaşın maliyyə vəziyyətinin yoxlanılması proseduru .............................................3

**4.** Məsuliyyət ...................................................................................................................4

Əlavə 1. ULTRA TECHNOLOGİES Biznes Tərəfdaşları üçün Sorğu Anketi ...................................... 4

# 1. MƏQSƏD VƏ ƏHATƏ DAİRƏSİ

**1.1** Bu Prosedurda biznes etikası prinsiplərinin pozulması (Biznes Etikası Qaydalarında müəyyən edildiyi kimi), biznes nüfuzunun korlanması və ULTRA TECHNOLOGİES Şirkətinin mümkün maliyyə itkiləri riskinin qarşısının alınması üçün ULTRA TECHNOLOGİES Şirkətinin biznes tərəfdaşlarının maliyyə vəziyyətinin yoxlanılması üzrə qaydalar və tədbirlər müəyyən edilir.

**1.2** Qiymətləndirmə proseduru təkcə yeni biznes tərəfdaşlarına deyil, həmçinin Şirkətin işləyən biznes tərəfdaşları ilə əməkdaşlıq üçün uzun müddətli əməkdaşlıq müqavilə və razılaşmalarının yenilənməsi və dəyəri 100.000 ABŞ dollarından çox olan müqavilələrin icrası halında da tətbiq olunacaqdır.

**1.3** BU prosedur ULTRA TECHNOLOGİES Şirkətinin biznes tərəfdaşları (müştərilər, alıcılar, distributorlar, podratçılar və s) ilə şirkətin münasibətləri üçün məsul olan bütün işçiləri üçün məcburidir.

## 2. ÜMUMİ

**2.1** Ultra Technologies şirkəti əməkdaşlıq zamanı istənilən hüquqi, maliyyə və nüfuz riskinin qarşısını almaq üçün hüquqi biznes həyata keçirən və kifayət qədər etibarlı olan, yaxşı müəyyən edilmiş tərəfdaşlarla biznes sövdələşmələri aparmağa səy göstərir. Bu siyasəti həyata keçirmək üçün, Şirkətin Hüquq Departamenti Ultra Technologies Şirkətində qəbul edilmiş yüksək biznes etikası standartlarına əməl olunması üçün biznes tərəfdaşlarının hərtərəfli qaydada ələkdən keçirilməsini həyata keçirəcəkdir.

**2.2** Şirkət ehtiyat yarandığı halda Biznes Etikası Qaydalarının tətbiq olunması zamanı biznes tərəfdaşları üçün məsləhətləşmələri həyata keçirəcəkdir.

**2.3** Şirkət ərizə və təkliflərin idarə olunması üçün müəyyən edilmiş sistemə malikdir ki, (Qaynar xətt) bu da biznes etikası üzrə yüksək standartlara əməl olunması, informasiya mənbəyi üçün konfidensiallığa əməl olunması ilə əlaqəli olan zaman vəziyyəti müəyyən etməyə köməklik edir. Zəhmət olmasa təfsilatlar üçün www.ultraintegrity.com saytına istinad edin.

## 3. TƏRƏFDAŞIN MALİYYƏ VƏZİYYƏTİNİN YOXLANILMASI PROSEDURU

**3.1** Biznes tərəfdaşları üçün lazımı səy göstərmək üçün hər hansı zərurət ortaya çıxdığı halda, Ultra Technologies Şirkətinin tərəfdaş ilə münasibətlər üçün məsul olan təyin edilmiş işçisi tərəfdaş şirkətin doldurması üçün sorğu anketi təqdim edəcək və sonra doldurulmuş sorğu anketini Hüquq Departamentinə ötürəcəkdir və şirkətin bu tərəfdaş və ya potensial tərəfdaş ilə münasibətinin tarixçəsi barədə məlumat verəcəkdir.

**3.2** Sorğu anketində, potensial tərəfdaş korporativ struktur, mövcud uyğunluq prosedurları, hökumət rəsmiləri ilə münasibətlər (dövlət qulluqçuları), araşdırmalar, pozuntular, məhkəmə çəkişmələri, bacarıq səviyyəsi və biznes tövsiyələri daxil olmaqla əlavə məlumatlar barədə suallara cavablar təqdim edir.

**3.3** Hüquq Departamenti tərəfdaş tərəfindən doldurulmuş sorğu anketindən istifadə edərək tərəfdaş şirkətin maliyyə vəziyyətinin yoxlanılmasını həyata keçirəcəkdir və o cümlədən tərəfdaşın fəaliyyətlərinin, onunla əməkdaşlıq tarixçəsi, onun biznes nüfuzu, açıq mənbə məlumatları, açıq dövlət reyestrləri, kütləvi informasiya vasitələrinin (internet, mətbuat, TV və s) hərtərəfli təhlilini həyata keçirəcəkdir.

**3.4** Bu ələkdən keçirmənin nəticələri əsasında Hüquq Departamenti maliyyə vəziyyətinin yoxlanılması üzrə nəticələr əsasında bu podratçı ilə əməkdaşlığın mümkünlüyü barədə tövsiyələr verəcəkdir. Əgər tərəfdaş şirkətin bu şirkətin siyasətlərinə əməl etməməsi riskləri aşkar edilərsə, hüquq Departamenti bu potensial tərəfdaş ilə biznes münasibətlərinin qarşısını almaq üçün müvafiq bölmə menecerini tövsiyə edəcəkdir (ACP İşçisinə hesabat verməklə).

## 4. MƏSULİYYƏT

**4.1** Ultra Technologies Şirkətinin biznes tərəfdaşı ilə münasibətlərə görə məsul olan işçiləri **1.2 və 1.3-cü bəndlərə** uyğun olaraq podratçı barədə doldurulmuş sorğu anketinin mövcud olması üçün məsuliyyət daşıyacaqdır.

**4.2** Hüquq Departamentinin Meneceri biznes tərəfdaşlarının xüsusi qaydada ələkdən keçirilməsini təmin etmək üçün məsuliyyət daşıyacaqdır.

## Əlavə 1. Biznes Tərəfdaşı üçün Sorğu Anketi

### Ultra Technologies Şirkətinin Tərəfdaşı üçün Sorğu Anketi

Hər bir tərəfdaşın Ultra Technologies Şirkətinin biznes etikası standartları və daxili və beynəlxalq qanunvericiliyin tələblərinə əməl etməsi Ultra Technologies Şirkəti ilə biznes sövdələşmələrinə malik olmaq üçün şərtlərdən biridir. Ultra Technologies Şirkətinin tərəfdaşları Ultra Technologies şirkətinin biznes maraqlarını təşviq etmək üçün işçilər, vəzifəli şəxslər və ya namizədlər tərəfindən qəbul edilən qərar və əqdlərə təsir göstərmək üçün qeyri hökumət təşkilatları və ya siyasi partiyaların üzvləri və siyasi namizədlər, tənzimləyici orqanların işçiləri və ya vəzifəli şəxsləri, hökumət rəsmilərinə hər hansı dəyərli əşyanı (istənilən hədiyyə, səfərlər, əyləncə xərcləri, xeyriyyə yardımları və s) təklif etməməli və ya ödəməməlidir və ya Şirkətin biznes maraqlarını istənilən sahədə qeyri müvafiq fəaliyyətlər həyata keçirərək təşviq etməməlidir. Nəzərinizə çatdırırıq ki, **Ultra Technologies Şirkətinin Siyasətində xüsusilə "rüşvət ödənişləri" kimi tanınan ödənişlərə imkan yaratmaq qadağan edilir.**

Zəmanət prosesinin bir hissəsinin həyata keçirilməsi məqsədləri üçün, biz sizdən öz şirkətiniz barədə məlumat təqdim etməyinizi gözləyirik. Təqdim olunan bütün məlumatlar konfidensial şəkildə emal olunacaq və bizim aramızda bağlanacaq məlumatların açıqlanmaması barədə razılaşma ilə qorunacaqdır. Sizin bu prosesə töhfəniz vacibdir və yüksək qiymətləndirilir. Təqdim olunan məlumatlar Ultra Technologies şirkəti tərəfindən bizim münasibətlərimizin Ultra Technologies şirkətinin Siyasətlərinə əməl olunmaması riskini yaratmamasını təmin etmək üçün mövcud olan məlumatların ardıcıl araşdırılması ilə istifadə olunacaqdır.

**1.** Şirkətin adı: ..............................................................................................................................

Ünvan: ..............................................................................................................................................................................................................................

Şirkətin veb səhifəsi: ..............................................................................................................................

Qeydiyyat nömrəsi / fiziki şəxsin vergi eyniləşdirmə nömrəsi / ƏDV Ödəyicisinin nömrəsi:

..............................................................................................................................................................................................................................

Biznes müəssisəsinin növü (özəl müəssisə, asossiasiya, açıq səhmdar cəmiyyəti və s), müəssisənin ölkəsi, şəhəri və regionu və təsis edilməsi:

..............................................................................................................................................................................................................................

..............................................................................................................................................................................................................................

Cəmi kadr təminatı: ..............................................................................................................................

**2.** İstənilən sual yarandığı halda əlaqə saxlamaq üçün Sorğu anketini doldurmaq üçün məsul olan şəxsin adı:

..............................................................................................................................................................................................................................

..............................................................................................................................................................................................................................

Telefon: ..............................................................................

E-mail: ..............................................................................

**3.** Zəhmət olmasa, Ultra Technologies Şirkəti ilə münasibətlər üçün məsul olan şəxsin adı və vəzifəsini müəyyən edin:

| Adı | Vəzifəsi |
|---|---|
| | |
| | |
| | |

**4.** Şizin şirkətinizdə yerində əməl olunacaq Biznes Etikası Qaydaları və ya oxşar davranış qaydaları var?

☐ Bəli ☐ Xeyr

Əgər varsa, zəhmət olmasa bu qaydaların sürətini göndərin və ya öz internet saytınızda bu sənədə istinadı verin:

................................................................................................................................................

**5.** Sizin şirkətinizdə cari daxili qanunvericilik, tətbiq olunan beynəlxalq tənzimləyici qaydalar və potensial tərəfdaş kimi Ultra Technologies Şirkətinin Biznes Etikası qaydaları daxil olmaqla etik qaydalara əməl olunmasına nəzarət edən Korporativ Biznes Etikası üzrə Nümayəndə, Korporativ Davamlılıq üzrə Vəzifəli şəxs var?

☐ Bəli ☐ Xeyr

Əgər varsa, zəhmət olmasa bu işçinin əlaqə məlumatlarını təqdim edin:

| | |
|---|---|
| Tam adı: | |
| Vəzifəsi: | |
| Ünvan: | |
| Telefon: | |
| Faks: | |
| E-mail: | |

**6.** Zəhmət olmasa, Şirkətin səhmlərinin 5%-i və ya daha çoxuna sahib olan bütün işçilər, direktorlar və sahibkarların adları təqdim edin:

| Adı | Vəzifəsi (işçi, direktor, sahibkar) |
|---|---|
| | |
| | |
| | |
| | |
| | |

**7.** 6-cı Suala cavabda müəyyən edilən hər hansı şəxs idarə, hökumət orqanı, dövlət xəstəxanası və ya digər səhiyyə müəssisəsi, beynəlxalq QHT, siyasi tərəf və ya tam və ya qismən dövlətin sahib olduğu müəssisədə vəzifə tutur və ya o, siyasi namizəddir?

☐ Bəli ☐ Xeyr

Əgər belədirsə, zəhmət olmasa bu şəxsləri, onların vəzifələri və müvafiq idarə, orqan, təşkilat və ya tərəfləri müəyyən edin.

| Adı | Şirkətdə / müəyyən edilmiş filialda Vəzifəsi | İdarə / Orqan / Təşkilat / Tərəf və şəxsin tutduğu vəzifə |
|---|---|---|
| | | |
| | | |
| | | |

**8.** 6-cı Suala cavabda müəyyən edilmiş istənilən şəxsin istənilən idarə, dövlət xəstəxanası və ya digər səhiyyə müəssisəsi, beynəlxalq QHT, siyasi tərəf və ya tam və ya qismən dövlətin sahib olduğu müəssisə ilə yaxın ailə əlaqələri var və ya o siyasi namizəddir?

☐ Bəli ☐ Xeyr

Əgər belədirsə, bu əlaqələrin növlərini müəyyən edin.

..........................................................................................

..........................................................................................

..........................................................................................

**9.** Hər hansı qeyri qanuni fəaliyyət, ətraf mühit pozuntusu, əməyin mühafizəsi qaydalarının pozulması və şirkətdə təhlükəsizliyin pozulması üçün sizin şirkətinizə qarşı hər hansı hüquqi proses başladılıb?

☐ Bəli ☐ Xeyr

Əgər belədirsə, zəhmət olmasa bu proseslərin xüsusiyyəti və bu vəziyyəti həll etmək üçün şirkət tərəfindən görülən tədbirlər barədə qısa məlumat verin.

........................................................................................................................................

........................................................................................................................................

**10.** Zəhmət olmasa şirkətinizin adının istənilən qətnamələrdə adının çəkilib çəkilmədiyini və ya istənilən ölkənin istənilən dövlət orqanı ilə razılaşmaya malik olub olmadığını və ya hər hansı orqan, məhkəmə və ya məhkəmə orqanı istənilən korrupsiya ilə əlaqəli pozuntularla əlaqədar şirkətə qarşı hər hansı proses başladıb başlatmadığının müəyyən edin?

☐ Bəli ☐ Xeyr

Əgər belədirsə, zəhmət olmasa bu qətnamə, bəyanat, qərar və ya məhkəmə hökmünü ayrıca vərəqdə müəyyən edin.

**11.** Aşağıda imza etməklə şirkət aşağıdakıları təsdiq edir:

a) Yuxarıda təqdim olunan məlumatlar həqiqi və dəqiqdir.
Əgər bu bəyanat saxta olarsa, zəhmət olmasa öz şərhlərinizi təqdim edin.

b) Şirkət təsdiq edir ki, o, Ultra Technologies Şirkətinin Biznes Etikası Qaydalarını oxuyub və əməl etməyə razılıq verir: www.ultraintegrity.com

İmza: ....................................................

Tarix: .......... ................................ ....................

Zəhmət olmasa, adı çap hərfləri ilə qeyd edin: ....................................................................................

Vəzifə: ....................................................................................................